# Vətənə fəda edilən şəhid ömrü

## AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI ŞƏHİD YUSİF MİRZƏYEV YAD EDİLİB

**Anım günü münasibətlə əvvəlcə Naxçıvan Şəhər Şəhidlər Xiyabanında anım tədbiri keçirilib.**

**Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açdıqdan sonra ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Şəhidlərin ruhuna dualar oxunub. Qəhrəmanın məzarı üstünə tər çiçəklər düzülüb, əkil qoyulub.**

Tədbirdə Naxçıvan şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsləri, Naxçıvan Şəhid Ailələri İctimai birliyinin, Naxçıvan Qaziləri və Veteranları İctimai Birliyinin, Naxçıvan MR Ali Məclisin Deputatları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət xidmətinin Naxçıvan şəhər idarəsinin rəhbərliyi və digər güc strukturlarının əməkdaşları, muxtar respublikanın bütün rayonlarından olan şəhidlərin ailələri, qazilər, müharibə veteranları, hərbçilər və ictimayət nümayəndələri iştirak edib.

Sonra şəhid anaları və şəhid ataları, milli qəhrəmanın yaxın dostları çıxış edərək onun ailəsinə dərin hörmət və ehtiramlarını ifadə ediblər.

Tədbirdə çıxış edən Yusif Mirzəyevin döyüş yoldaşı, birinci Qarabağ müharibəsində raket artilleriya xidmətinin rəisi olmuş Vaqif Bağırov qəhrəmanla keçdiyi döyüş yolundan, Yusifin göstərdiyi şücaətdən danışıb.

Milli Qəhrəmanın anım günü ilə əlaqədar daha bir tədbir Naxçıvan Dövlət Universitetində keçirilib.

Əvvəlcə Milli Qəhrəmanın həyat və döyüş yolunu əks etdirən sərgiyə baxış olub.



Daha sonra ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq belə qəhrəmanların həyat yolunun gənclərə əsl örnək olduğunu vurğulayıb. Rektor qeyd edib ki, I Qarabağ müharibəsinin çətin şəraitinə baxmayaraq, Yusif Mirzəyev son nəfəsinə qədər qəhrəmanlıqla vuruşub. Dövlətimiz tərəfindən Milli Qəhrəmanın xatirəsinə hər zaman ehtiram göstərilib, Bakının Nəsimi rayonundakı 44 saylı məktəbə onun adı verilib, məktəbin qarşısında büstü ucaldılıb, muzeylərdə, filmlərdə xatirəsi əbədiləşdirilib.

Yusif Mirzəyevin bacısı Naibə Mirzəyeva və uşaqlıq dostu, qohumu Cavad Rzayev onun keçdiyi qəhrəmanlıqlarla dolu ömür yolundan və xatirələrindən bəhs ediblər.

NDU-nun rektoru Elbrus İsayev tərəfindən şəhidin porterti onun ailə üzvlərinə hədiyyə edilib.

Tədbirin bədii hissəsində İncəsənət fakültəsinin "Belkanto" vokal qrupunun ifasında "Yusifim" mahnısı və Şəmistan Əlizamanlının Yusif Mirzəyevə ithaf etdiyi "İgid əsgər" mahnısı ifa edilib.

Sonda Milli Qəhrəmanın şərəfli döyüş yoluna həsr olunmuş "İgid əsgər" filmi nümayiş olunub.

Qeyd edək ki, Yusif Mirzəyev 1958-ci ilin 23 may tarixində Babək rayonunun Böyükdüz kəndində anadan olub. O, 1990-cı ildə 20 Yanvar faciəsi baş verdiyi vaxt xalq etirazlarına qoşulduğu üçün Bakı şəhər komendantı tərəfindən həbs edilib. Daha sonra düşmənə qarşı vuruşmaq üçün könüllü olaraq cəbhəyə gedib və Goranboy, Ağdərə istiqamətlərində döyüşlərdə iştirak edib. O, cəmi 14 nəfərlik dəstəsi ilə bir çox əməliyyata qatılıb, Ağdərənin 17 kəndinin işğaldan azad edilməsində yaxından iştirak edib. Döyüşlərin birində mühasirəyə düşən dəstəni itki verməkdən xilas edib.

Bir müddət düşmənə qarşı savbaşda iştirak etsə də həbsdə böyrəyindən aldığı zədələr ona



müharibədə döyüşləri davam etdirməyə mane olur və xəstəxanaya yerləşdirilir. Bu yerdə isə onun həyatında ömür boyu silinməyəcək bir xatirə yaşanır. Yerləşdirildiyi xəstəxanada hərbi vətənpərvərlik mahnılarının ifaçısı, tanınmış hərbi diktor Şəmistan Əlizamanlı ilə eyni otaqda müalicə alır. Onları müalicə edən həkim Şahin Musaoğlu bir gün yaxınlaşaraq deyir ki, "mən vətənpərvərlik mövzusunda bir mahnı yazmışam". Mahnı barədə qısa söhbət olur və Yusif Mirzəyev həmin mahnının sözlərini çox bəyəndiyini bildirir və Şəmistana bu mahnını oxumasını xahiş edir. Şəmistan Əlizamanlı isə mahnını mütləq oxuyacağını və ona həsr edəcəyinə söz verir. Yusif Mirzəyev xəstəxanada tam sağalmamış yenidən cəbhəyə qayıtmaq istədiyini bildirir. Səhhətinin ağır olduğu deyilsə də o, "bilirəm canım əldən gedir, ancaq vətən də əldən gedir" deyərək yenidən cəbhəyə qayıdır.

Müharibənin qızğın davam etdiyi müddətdə onlara həmin istiqamətdə döyüşün təhlükəli olması səbəbilə Ağdərədən çıxmaq əmr edilir. Ancaq Yusifin cavabı belə olur: "Bu, tək mənim fikrim deyil. Burada olan uşaqların hamısı eyni fikirdədir, axır nəfəsimizə kimi vuruşacağıq". Cəmi 14 nəfərlə həmin istiqamətdə düşmənin çox sayda əsgərinə qarşı müqavimət göstərir. Hətta erməni tərəfi həmin yerdə böyük bir taborun olduğunu düşünür. Yusif Mirzəyevin ən məşhur sözlərindən biri də ona hərbi qüvvələrin az olduğu, döyüşün təhlükəli olduğu və sair deyilərkən işlətdiyi bu ifadələrdir: "Bu qoşunla biz əks-hücuma keçəcəyik, qırılan qırılacaq, qalan da, girov düşən də özünü güllələyəcək, o qədər"...

Yusif Mirzəyev 1993-cü il fevralın 19-da Ağdərədə gedən qeyri-bərabər döyüşlərin birində Azərbaycan əsgərlərini mühasirədən çıxararkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin 27 mart 1993-cü il tarixli fərmanı ilə Mirzəyev Yusif Vəli oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

**Ruhu şad olsun!**